


پنجشنبه 09 اردیبهشت 1395 - 11:07

Ermni ekspertdn qalmaqall iddia

## [Mharib zaman srailin Azrbaycana hrbi texnika yardimi]

sionist rejim, Azrbaycana qar tcavzn ratit yaratmaqla znn anti-iran strategiyas rivsind hrkt edir v .eyni zamanda Ermnistana z rqibi kimi deyil, n az, strateji dmninin dostu kimi yanar

**AranNews- diplomatiya müharibənin sivil biçimdə davamıdır və Azərbaycan son illərdə qazandığı .iqtisadi və siyasi potensialı həmin dörd gündə qismən sərgilədi**

Gecikmiş erməni təbliğatı Ermənistanın dördgünlük müharibədəki məğlubiyyətinə haqq qazandırmaq üçün Azərbaycanın bölgədə və dünyada mənfi imicini yaratmaqda dəridən-.qabıqdan çıxır, ən ağlasığmaz versiyaları gündəmə gətirir

Tanış olacağınız yazı bu qəbildəndir. Erməni “ekspert” indi də son zamanlar daha da sıxlaşan .İran-Azərbaycan münasibətlərini hədəfə götürür

İsrailin “Haarets” qəzetinin bu günki dərcindən məlum olduğu kimi, Azərbaycan İsraildən 5 milyard dollarlıq silah alıb. Bundan başqa, qəzet məlumat verir ki, Azərbaycan SQ-nin nəqliyyat təyyarəsi aprelin əvvəlində dördgünlük müharibə vaxtı İsrailə iki dəfə uçuş ediərək Uvda hərbi aerodromuna enib. Güman etməyə əsasımız var ki, Azərbaycana silahdan savayı Azərbaycan SQ-ə bu silahlardan istifadə etməyə yardım göstərən İsrail təlimatçıları və mütəxəssisləri çatdırılıb (biz həmçinin KİV-in nəzərindən kənarda qalmış başqa reyslərin də həyata keçirilıdiyini .(istisna etməzdik

Ermənistan XİN artıq bu haqda etirazını bildirib, lakin İsraillə Azərbaycan arasında silah sövdələşməsinin məbləği və strukturu Arsax (mətndə bu cürdür-tərc.) münaqişəsinə münasibətdə İsrailin siyasətini bir daha təhlil etməyə vadar edir. Məlum olduğu kimi, silah ticarəti beynəlxalq siyasət və iqtisadiyyatın olduqca həssas sahəsidir – cəlb edilmiş dövlətlərin iqtisadi maraqları ciddi şəkildə siyasi prioritetlərə tabe olur. Bundan başqa, məsələ xüsusən də münaqişəli bölgələrə aid olarkən silah ticarətinə xeyli beynəlxalq-hüquqi məhdudluqlar var. Bu qayda ilə, Azərbaycan-İsrail (həmçinin Rusiya-Azərbaycan) hərbi əməkdaşlığına biznes kimi hər cür bəraət qazandırmaq cəhdlərini bir kənara qoymaq lazımdır – bu həmin dövlətlərin Cənubi ?Qafqazda uzunmüddətli hədəflərini izləyən siyasətdir. Lakin hansıları

İsrailin tədarük etdiyi silahların təhlili və tətbiqinə (daha dəqiqi, sınaqdan keçirilməsinə) fəal yardım güman etməyə əsas verir ki, İsrail daha diqqətlə nəzərdən keçirərkən üzə çıxan hədəfləri .izləyir

Məsələn, Arsaxın Müdafiə ordusu bu yaxınlarda İsrailin BlueBird şirkətinin istehsal etdiyi və nümunəvi uçuş zamanı 25,5 saat havada qalan Thunder taktiki pilotsuz təyyarəsini vurdu. Lakin bu cür təsirli nəticə Arsax və hətta bütün Ermənistan ərazisini müşahidə etmək üçün tamamilə artıqdır. Bu cür xarakteristikalar daha böyük ərazi, məsələn, İranı müşahidə etmək üçün !səmərəlidir

Xatırladaq ki, İsrail İranın nüvə proqramının beynəlxalq müstəvidə aktuallaşmağının ilk günündən İrana önləyici zərbələrin endirilməsinin ən təcavüzkar tərəfdarlarından biridi. Və hətta dünya birliyi və İran bu problem üzrə hiss olunası güzəştlər əldə edərkən İsrail barışmaz .mövqeyini tərgitmir, İranla istənilən kompromnisi öz varlığı üçün ciddi təhdid sayır

Bu versiya Arsaxdakı hərbi əməliyyatlardan özünün ən yeni silahlarını sınaqdan keçirmək, ərazinin araşıdırlması, həmçinin İrana qarşı kəşfiyyat və təxribat fəaliyyətinin aparılması üçün .istifadə edən İsrailin davranışını izah etməyə imkan verir

İsraildə Azərbaycan maraqlarını fəal şəkildə lobbiləşdirən Azərbaycan və Şimali Qafqazdan böyük diasporanın varlığını nəzərə almaqla bu rejimin belə siyasətinin müəyyən qədər anti-erməni yönünü də çıxdaş etmək lazım deyil. Həmçinin Azərbaycanın İrana nisbətdə qeyri-dost münasibətini də xatırlamaq vacibdir – yaxın keçmişdə Azərbaycan isteblişmentinin müxtəlif təmsilçiləri yüksək hakimiyyətdən xəbərsiz və icazəsiz İrana qarşı ərazi və digər iddialar irəli .sürürdülər

Beləliklə, müəyyən qədər əminliklə iddia etmək mümkündür ki, İsrail Azərbaycanın Arsaxın dinc

əhalisinə qarşı təcavüzünə şəratit yaratmaqla əsasən özünün anti-iran strategiyası çərçivəsində hərəkət edir və eyni zamanda Ermənistana öz rəqibi kimi deyil, ən azı, strateji düşməninin dostu .kimi yanaşır


قدرت گرفته از پرتال شمس - ITShams.ir